## Ümumi orta (9-illik) təhsil səviyyəsi üzrə buraxılış imtahanının modeli və balların hesablanma qaydası

| Fənnin adı | Nisbi bal | Tapşırıqların sayı | Nisbi balın hesablanması düsturu |
|---|---|---|---|
| Tədris dili | 100 | - Dil qaydalarına dair qapalı tipli **10** tapşırıq;<br>- Oxuyub-anlamaya dair 2 mətn (bədii, publisistik) və hər mətnə aid **10** tapşırıq: bunlardan: yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli **2** və qapalı tipli **8** tapşırıq (hər iki mətn üzrə ümumilikdə **20** tapşırıq).<br>**Cəmi: 30 tapşırıq** | $\frac{\left(2\cdot n_{d(\text{açıq, yazılı})}+n_{d(\text{qapalı})}\right)\cdot 100}{34}$ |
| Riyaziyyat | 100 | - Qapalı tipli **15** tapşırıq;<br>- Cavablarının kodlaşdırılması tələb olunan açıq tipli **6** tapşırıq;<br>- Həllinin ətraflı şəkildə yazılması tələb olunan açıq tipli **4** tapşırıq.<br>**Cəmi: 25 tapşırıq** | $\frac{\left(2\cdot n_{d(\text{açıq, yazılı})}+n_{d(\text{açıq, kod.})}+n_{d(\text{qapalı})}\right)\cdot 100}{29}$ |
| Xarici dil (ingilis, alman, fransız, rus, ərəb, fars dilləri) | 100 | - Dinləyib-anlamaya dair 1 mətn (publisistik və ya dialoq formalı) və mətnə aid **6** tapşırıq: bunlardan yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli **1** və qapalı tipli **5** tapşırıq;<br>- qapalı tipli **16** tapşırıq;<br>- Oxuyub-anlamaya dair 1 mətn və mətnə aid **8** tapşırıq: bunlardan yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli **3** və qapalı tipli **5** tapşırıq.<br>**Cəmi: 30 tapşırıq** | $\frac{\left(2\cdot n_{d(\text{açıq, yazılı})}+n_{d(\text{qapalı})}\right)\cdot 100}{34}$ |

**Qeyd.** 1. $n_{d(\text{açıq, yazılı})}$ – yazılı şəkildə cavablandırılması və yaxud həllinin ətraflı şəkildə yazılması tələb olunan açıq tipli tapşırıqlara verilən balların cəmi;

$n_{d(\text{açıq, kod.})}$ – cavablarının kodlaşdırılması tələb olunun açıq tipli tapşırıqlara verilən balların cəmi;

$n_{d(\text{qapalı})}$ – qapalı tipli test tapşırıqlarına verilən balların cəmi.

2. Qapalı tipli və cavabların kodlaşdırılması tələb olunan açıq tipli tapşırıqların hər birinə verilən düzgün cavab 1 balla qiymətləndirilir.
3. Yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli tapşırıqlar markerlər tərəfindən meyarlar əsasında $0, \frac{1}{3}, \frac{1}{2}, \frac{2}{3}$ və ya 1 balla qiymətləndirilə bilər.

Şagirdlərin bilik və bacarıqlarını yoxlamaq məqsədi ilə onlara ümumilikdə 85 tapşırıq təqdim edilir. İmtahanın müddəti 3 saatdır.

## Tam orta (11-illik) təhsil səviyyəsi üzrə buraxılış imtahanının modeli və balların hesablanma qaydası

| Fənnin adı | Maksimal bal | Tapşırıqların sayı | Nisbi balın hesablanması düsturu |
|---|---|---|---|
| Tədris dili - Azərbaycan dili | 100 | - Dil qaydalarına dair qapalı tipli **10** tapşırıq;<br>- Oxuyub-anlamaya dair 2 mətn (bədii, publisistik) və hər mətnə aid **10** tapşırıq: bunlardan yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli **5** və qapalı tipli **5** tapşırıq (hər iki mətn üzrə ümumilikdə **20** tapşırıq).<br>**Cəmi: 30 tapşırıq** | $\frac{5}{2}\cdot\left(2n_{d(\text{açıq, yazılı})}+n_{d(\text{qapalı})}\right)$ |

| | | | |
|---|---|---|---|
| Riyaziyyat | 100 | - Qapalı tipli **13** tapşırıq;<br>- Cavablarının kodlaşdırılması tələb olunan açıq tipli **5** tapşırıq;<br>- Həllinin ətraflı şəkildə yazılması tələb olunan açıq tipli **7** tapşırıq.<br>**Cəmi: 25 tapşırıq** | $\frac{25}{8}\cdot(2n_{d(\text{açıq,yazılı})}+$ $+n_{d(\text{açıq, kod.})}+n_{d(\text{qapalı})})$ |
| Xarici dil (ingilis, alman, fransız, rus, ərəb, fars dilləri) | 100 | - Dinləyib-anlamaya dair 1 mətn (publisistik və ya dialoq formalı) və mətnə aid **6** tapşırıq: bunlardan yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli **3** və qapalı tipli **3** tapşırıq;<br>- Qapalı tipli **16** tapşırıq;<br>- Oxuyub-anlamaya dair 1 mətn və mətnə aid **8** tapşırıq: bunlardan yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli **4** və qapalı tipli **4** tapşırıq.<br>**Cəmi: 30 tapşırıq** | $\frac{100}{37}\cdot(2n_{d(\text{açıq,yazılı})}+n_{d(\text{qapalı})})$ |

**Qeyd.** 1. $n_{d(\text{açıq, yazılı})}$ – yazılı şəkildə cavablandırılması və yaxud həllinin ətraflı şəkildə yazılması tələb olunan açıq tipli tapşırıqlara verilən balların cəmi;

$n_{d(\text{açıq, kod.})}$ – cavablarının kodlaşdırılması tələb olunun açıq tipli tapşırıqlara verilən balların cəmi;

$n_{d(\text{qapalı})}$ – qapalı tipli test tapşırıqlarına verilən balların cəmi.

2. Qapalı tipli və cavabların kodlaşdırılması tələb olunan açıq tipli tapşırıqların hər birinə verilən düzgün cavab 1 balla qiymətləndirilir.

3. Yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli tapşırıqlar markerlər tərəfindən meyarlar əsasında 0, $\frac{1}{3}$, $\frac{1}{2}$, $\frac{2}{3}$ və ya 1 balla qiymətləndirilə bilər.

Abituriyentin **qəbul imtahanının birinci mərhələsi (cari ilin məzunları üçün tam orta (11-illik) təhsil səviyyəsi üzrə buraxılış imtahanı) üzrə ümumi balı** hesablanarkən hər bir fənn üzrə topladığı nisbi ballar cəmlənir. Fənlər üzrə nisbi ballar yuxarıdakı cədvəldə göstərilən qaydada hesablanır və 0.1-ə qədər yuvarlaqlaşdırılır. Tapşırıqlar üzrə səhv cavablar düzgün cavabların nəticəsinə təsir göstərmir.

Şagirdlərin bilik və bacarıqlarını yoxlamaq məqsədi ilə onlara ümumilikdə 85 tapşırıq təqdim edilir. İmtahanın müddəti 3 saatdır.